# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 yanvar tarixli Sərəncamının icra olunması haqqında

Azərbaycan Respublikası Prezidentinin “Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri üçün müəyyən edilmiş təqaüdlərin artırılması haqqında” 2016-cı il 25 yanvar tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 yanvar tarixli Sərəncamı rəhbərlik və icra üçün qəbul edilsin.

2. Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri üçün müəyyən edilmiş təqaüdlərin məbləğinin Azərbaycan Respublikası Prezidentinin yuxarıda qeyd olunan Sərəncamına əsasən 10 faiz artımla 1 fevral 2016-cı il tarixindən aşağıdakı kimi müəyyənləşdirildiyi nəzərə alınsın:

Doktorantura pilləsi üzrə:

elmlər doktoru hazırlığı üzrə doktorantlara - 242 manat

fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - 132 manat

Ali təhsil müəssisələrində:

adlı təqaüd alan tələbələrə – 132 manat

magistratura səviyyəsi üzrə:

akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 115,5 manat

akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 93,5 manat

akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 60,5 manat

bakalavriat səviyyəsi üzrə:

akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 104,5 manat

akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 88 manat

akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 55 manat

Orta ixtisas təhsili müəssisələrində:

akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 55 manat

akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 44 manat

akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 38,5 manat.

İlk peşə-ixtisas təhsili müəssisələrinin şagirdlərinə – 38,5 manat

3. Maliyyə şöbəsi (R.Orucov) dövlət sifarişi ilə kadr hazırlığı həyata keçirilən ali təhsil müəssisələrində, eləcə də Təhsil Nazirliyindən maliyyələşdirilən orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrində təhsil alan doktorant, tələbə və şagirdlərin təqaüdlərinin 1 fevral 2016-cı il tarixindən bu əmrin 2-ci bəndində göstərilən məbləğlərə uyğun ödənilməsi məqsədilə müvafiq tədbirlərin görülməsini təmin etsin.

4. İnformasiya şöbəsi (E.Əliyev) əmrin çoxaldılaraq aidiyyəti müəssisələrə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini C.Bayramova həvalə edilsin.

***Mikayıl CABBAROV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***01 fevral 2016-cı il***

***№60***

---